# Humanist siyasətin növbəti təzahürü

## Ölkə başçısının hüquqi islahatlar siyasətində humanizm əsas amildir.

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 10 fevral 2017-ci il tarixli Sərəncamı ölkə başçısının humanist siyasətinin növbəti təzahürü, hüquqi islahatların tərkib hissəsidir.***

Cənab Prezidentin bu təşəbbüsü hüquqi tənzimləmədə yeniliklər üçün imkan yaradır və sənəddə cəmiyyətin, fərdin və dövlətin maraqları nəzərə alınır. Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı indiyədək əldə edilmiş təcrübəni daha səmərəli tətbiq etməyə imkan verir. Azərbaycanda cəza siyasətinin humanistləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi hər zaman ölkə başçısının diqqət mərkəzində olmuşdur.

Belə ki, 2003-cü ildən bəri ölkə Prezidenti tərəfindən imzalanan və 3800-dən çox şəxsə şamil edilən 31 əfv sərəncamı da humanizm prinsiplərinə əsaslanan idarəçiliyin və humanist cəza siyasətinin həyata keçirilməsinin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNİESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mərhəmətlilik prinsiplərinə əsaslanaraq, amnistiya aktlarının qəbuluna dair mütəmadi təşəbbüsü sayəsində qəbul olunmuş 4 amnistiya aktının tətbiqi 40 mindən artıq insanın cəzadan azad olunması, yaxud cəzalarının azaldılması ilə nəticələnmişdir.

2017-ci ilin fevral ayının 16-da Azərbaycan Respublikası Baş Prokurorluğunda əməliyyat müşavirəsi keçirilmişdir. Həmin müşavirədə ölkə başçısının “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 10 fevral 2017-ci il tarixli Sərəncamından irəli gələn məsələlər və qarşıda duran vəzifələr müzakirə olunmuşdur. Müşavirədə Baş prokuror cənab Zakir Qaralov qeyd etmişdir ki, “Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı Prezident cənab İlham Əliyevin humanist siyasətinin təzahürü olan həmin Sərəncam mükəmməl şəkildə hazırlanmış strateji əhəmiyyətə malik bir sənəd olmaqla ölkənin hüquq sisteminin əsaslı şəkildə yenilənməsinə və müasirləşməsinə imkan yaradacaqdır. Eyni zamanda bu mühüm sənəd cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə cəzasının tətbiqinin məhdudlaşdırılması, cinayətlərin dekriminallaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini nəzərdə tutmaqla növbəti islahatların həyata keçirilməsinə mühüm təkan verəcəkdir”.

Sözügedən Sərəncamın icrası ilə əlaqədar qəbul olunmuş “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunun əsas məqsədi böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılmasıdır.

Qanuna əsasən Cinayət Məcəlləsinə ümumilikdə, 300-ə yaxın dəyişiklik edilərək, 14 cinayət əməli dekriminallaşdırılmış, 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azadetmə müəyyən olunmuş, 1 cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi, 152 cinayətin sanksiyasına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə edilməsi və 36 cinayətə görə azadlıqdan məhrumetmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulmuşdur.

Belə ki, qəsdən törədilmiş bir sıra böyük ictimai təhlükə törətməyən və ehtiyatsızlıqdan törədilmiş cinayətlər, o cümlədən cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən sağlamlığa az ağır zərər vurma, ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma, telefon xətlərinə qanunsuz daxil olmaqla danışıqlar aparma cinayətləri dekriminallaşdırılmışdır.

Digər bir sıra cinayətlərin qanunda mövcud olmuş sadə tərkibi dekriminallaşdırılmaqla onların yalnız müəyyən ağırlaşdırıcı hallarda törədilməsi cinayət kimi təsbit edilmişdir. Məsələn, özgənin əmlakını ehtiyatsızlıqdan məhv etmə və ya zədələməyə görə bütün hallarda deyil, yalnız odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma nəticəsində törədildikdə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Yeni qanuna görə özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə etmə yalnız xeyli miqdarda ziyan vurduqda cinayət məsuliyyətinə səbəb olacaq, bu əməlin təkrar törədilməsi isə buna əsas verməyəcəkdir.

Bununla yanaşı, oğurluq, dələduzluq, mənimsəmə və ya israf etmə, soyğunçuluq, quldurluq, hədə-qorxu ilə tələb etmə, aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlak ziyanı vurma, cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə, saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma, narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə cinayətlərini nəzərdə tutan maddələrə bu əməllər əvvəllər müvafiq konkret cinayətlərə görə məhkum edilmiş şəxs tərəfindən törədildikdə məsuliyyətin ağırlaşdırılmasını nəzərdə tutan müddəalar Cinayət Məcəlləsindən çıxarılmış, habelə oğurluq, dələduzluq, mənimsəmə və ya israf etmə əməllərinə görə cinayət məsuliyyəti yaradan ziyanın məbləği 5 dəfə artırılmaqla həmin həddədək olan cinayətlər dekriminallaşdırılmışdır.

Zərərçəkmişin hüquqları və dövlət maraqları nəzərə alınaraq cəzaçəkmə müəssisələrində məhkumların sayının, istintaq və məhkəmə orqanlarının iş yükünün azaldılması məqsədilə cinayət məsuliyyətinə alternativ tədbir kimi cinayət məsuliyyətindən azad etmənin tətbiqi dairəsi genişləndirilmişdir. Cinayət Məcəlləsinə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə, narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə institutları daxil edilmişdir. Yeni qanunla, eyni zamanda, səmimi peşmanlıqla, zərərçəkmiş şəxslə barışmaqla və şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmənin tətbiqi əsasları əməlin ilk dəfə törədilməsi şərti aradan qaldırılaraq sadələşdirilmiş, bununla yanaşı şəxsin qanunvericiliklə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilməsi təsbit edilmişdir.

Belə ki, cəza siyasətinin liberallaşdırılması məqsədilə, mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində törədilən və ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan bir sıra cinayətləri törətmiş şəxslərin vurulmuş ziyanı tamamilə ödədikdə, cinayət nəticəsində vurulmuş ziyanın və ya əldə edilmiş gəlirin məbləğindən asılı olaraq isə vurulmuş ziyanı tamamilə ödədikdə və ya əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə və bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir və ya iki misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, Cinayət Məcəlləsinə mülkiyyət əleyhinə və ya iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətlər üzrə cinayət məsuliyyətinin diferensiallaşdırılması məqsədilə yeni tövsifedici hal qismində əməllərin xüsusilə külli miqdarda, yəni beş yüz min manatdan yuxarı olan məbləğdə ziyan vurmaqla və ya gəlir əldə etməklə törədilməsi kimi yeni cinayət tərkibləri əlavə edilmiş, müvafiq olaraq bir sıra cinayət tərkibləri üzrə cinayət məsuliyyəti yaradan xeyli və ya külli miqdarların məbləğləri artırılmış, həmçinin əməllərin xeyli və ya külli miqdarda törədilməsinə görə sanksiyada nəzərdə tutulan azadlıqdan məhrumetmə cəzaları yüngülləşdirilmiş, alternativ cəzalar əlavə edilmişdir.

Cəza siyasətinin liberallaşdırılması məqsədi ilə qanunda həmçinin, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi əməlini törətmiş şəxsin Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağlaması və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödəməsi, habelə məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə əməlini törətmiş şəxsin həmin məhkəmə aktlarını məhkəmə tərəfindən hökm çıxarılanadək tam icra etməsi cinayət məsuliyyətindən azad etmənin əsasları sırasına əlavə edilmişdir.

Bu cür yanaşma cəza siyasətinə münasibətdə müasir baxışları əks etdirir və alternativ cəzaların, kompensasiya, dəymiş ziyanının ödənilməsi mexanimlərinin daha səmərli tətbiqinə, cəza təyin edilməsində differensial yanaşmanın əsas götürülməsinə geniş imkanlar yaradır.

Beləliklə, cəza siyasətinin liberallaşdırılması böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə şəxslərə münasibətdə adekvat tədbirlər görülməsini ehtiva edir.

Cəza siyasətinin liberallaşdırılması eyni zamanda çox pozitiv sosial-iqtisadi nəticələrə səbəb olacaqdır. İlk növbədə məhkumların sayı, eləcə də dövlət büdcəsindən onların saxlanmasına çəkilən xərclər azalacaq, kompensasiya və ziyanın ödənilməsi, müasir bazar iqtisadiyyatı mexanizmlərinin geniş tətbiq olunmasına yol açacaqdır.

Əhəmiyyətli yeniliklərdən biri də, narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə institutunun tətbiqi ilə cinayət qanunvericiliyində satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama cinayətini törətmiş şəxslərə münasibətdə baxışın dəyişdirilməsi və onların ilk növbədə narkomaniya xəstəliyinə düçar olmuş şəxslər kimi qəbul edilməsi olmuşdur.

Sonda qeyd edək ki, bütün bu yeniliklər hüquq-mühafizə sistemi və cəza siyasəti ilə cinayət törətmiş şəxs, cinayətə meyilli şəxs, eləcə də cəzadan azad olunmuş şəxs arasında tamamilə yeni bir münasibətlər sistemi yaranmasının əsasını qoymaqla, humanizm prinsiplərinin ön plana çıxmasını şərtləndirəcəkdir.

**Məqsəd ORUCOV,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Peşə təhsilinə diqqət və qayğı getdikcə artır

***Son illər təhsil sahəsində aparılan islahatlar içərisində ən uğurlu sayılan peşə təhsilinin inkişafı üçün hazırlanan və həyata keçirilən layihələrdir desək yanılmarıq. Peşə təhsili yeniyetmə və gənclərin eləcə də bu sahəyə maraq göstərən insanların gələcəklərini daha uğurlu qurması üçün geniş imkanlar yaradır.***

***Respublikamızda peşə təhsilinə günbəgün artan maraq və diqqətin sayəsində bölgələrimizdə peşə təhsilinin inkişafı üçün əlverişli şərait və imkanlar yaradılmışdır. Ölkəmizdə iki istiqamətdə - kənd təsərrüfatı və turizm sahəsində inkişaf edən peşə təhsilinə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir.***

Azərbaycanın əlverişli coğrafi mövqeyi, ecazkar təbiəti, zəngin bitki və meşə örtüyü, torpağının məhsuldar olması, mineral bulaqları, zəngin təbii ehtiyyatları burada turizmin inkişafı üçün əlverişli şəraitin olmasının əsas göstəricilərindəndir.

Rayonumuz turizmin əsas regionlarından biridir. Artıq dünya miqyasında tanınan və turistlərin sevimli istirahət məkanına çevrilən Qəbələdə gözəl istirahət mərkəzləri: beşulduzlu otellər, müalicə mərkəzləri və s. istirahət məkanları fəaliyyət göstərir. Turizm istirahət mərkəzlərinin uğurlu fəaliyyət göstərməsi üçün bacarıqlı, istedadlı, hərtərəfli biliyə malik kadrların hazırlanması zəruridir. Bu məqsədlə 2009-cu ildən fəaliyyət göstərən Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi qeyd olunan turizm obyektləri ilə sıx əməkdaşlıq edir.

2017-2018-ci tədris ilinin şagird qəbulu planına əsasən mərkəz aşpaz, kompüter operatoru, mehmanxana təsərrüfatı işləri üzrə nəzarətçi, turizm agenti, mehmanxana inzibatçısı, ofisiant, barmen, bufetçi peşələri üzrə şagird qəbul edib. Aşpaz və mehmanxana təsərrüfatı işləri üzrə nəzarətçi qruplarında təlim “Modul sistemi”nə əsasən aparılır. Bu təlim metodunun üstünlüyü şagirdlərdə müstəqil fikir yürütmək bacarığı, təhlil etmək, araşdırmaq, yenilik edə bilmək bacarığını inkişaf etdirməkdən ibarətdir.

Tədris mərkəzinin mühəndis pedaqoji heyəti- istehsalat təlimi ustaları, ixtisas fənn müəllimləri təhsildə baş verən son yenilikləri öyrənmək məqsədilə respublikamızda, eləcə də Türkiyədə təşkil olunan kurs və seminarlarda iştirak edərək təcrübə əldə ediblər.

O cümlədən tədris mərkəzində tələbələrin seçdikləri peşənin incəliklərinin daha yaxşı öyrədilməsi məqsədilə rayonda fəaliyyət göstərən otellərin rəhbərləri ilə görüşlər keçirilir, tələbələrin təcrübə zamanı üzləşdiyi çətinliklərlə bağlı müzakirələr aparılır.

Şagirdlər asudə vaxtlarını səmərəli keçirmək məqsədilə mərkəzin kitabxanasında mütaliə və müzakirələr edir, turizm sahəsində dünyada baş verən yenilikləri, son məlumatları əldə edirlər.

**Səbinə CAHANGİRLİ,**
**mərkəzin istehsalat**
**təlimi ustası.**